# Pengutex

## Texniki Məlumat Səhifəsi

### Məhsul təqdimatı

Penguin Pengutex akrilik kopolimer əsaslı, sərt hava şəraitinə dayanıqlılıq göstərən, yüksək keyfiyyətli xarici cəbhə divar məcunudur. Tənəffüs edə bilmə xüsusiyyəti ilə divardakı rütubəti bayıra atar. İstifadəsi asandır və tez bir vaxtda quruyur. Daha sonra üzərinə vurulacaq boyanın dözümlülüyünü artırır, sərfiyyatını azaldır.

### İstifadə olunacaq səthlər

Hər növ divarlarda düz bir səth əldə etmək üçün istifadə oluna bilər.

### Səthin hazırlanması

Tətbiqdən öncə səth köhnə boya qalıqlarından, tozdan, kirdən və yağ qalıqlarından təmizlənməlidir. Yeni suvanmış səthlərdə 21 gün (20º C-də) suvağın bərkiməsi gözlənilməlidir. Penguin Pengutex Məcunu istifadəyə başlamazdan əvvəl səthi bərkitmək üçün astar olaraq Penguin binder istifadə olunur. Penguin Pengutex həm mala ilə, həm də kompressorla tətbiq olunur. Ehtiyac olarsa, 1.5-2% su ilə incəldilə bilər. Səth tempraturu +5-+30$^{0}$C arasında olmalıdır, nisbi rütubət 80%-i keçməməlidir.

### Boya Sərfiyyatı

1 kq. Penguin Pengutex məcun ilə mala ilə tətbiq olunduqda səthə bağlı olaraq 3.5 - 5 m$^{2}$ sahə, kompressorla tətbiq olunduqda isə 1kq ilə 1 m$^{2}$ sahə məcunlana bilər.

### Fiziki xassələri

| | |
|---|---|
| **Rəng** | Multicolor sistemi ilə rəngələnə bilər |
| **Qatı maddə miqdarı** | 77±2% |
| **Sıxlığı (q/ml)** | 1.85±0.02 q/ml |
| **Parlaqlıq** | Mat |

### Tətbiq üsulları

| | |
|---|---|
| **Püskürtmə** | Havasız tapança istifadə oluna bilər |
| **Fırça** | Uyğundur |
| **Rulo** | Uyğundur |

### Quruma müddəti

Quruma müddəti əsasən hava şərtlərinə, çəkilən qat qalınlığına və çəkilən qat sayına bağlıdır. Aşağıdakı cədvəldə boyanın hava temperaturundan asılı olaraq təqribi quruma zamanı göstərilmişdir.

- Boyanacaq ərazi yaxşı havalandırılmalıdır (Açıq hava və ya sərbəst hava dövretməsi)
- Boya məsləhət edilən qalınlıqda vurulmalıdır
- Nisbi rütubət 80%-dən yuxarı olmamalıdır

| **Havanın temperaturu** | **10ºC** | **23ºC** |
|---|---|---|

**"CMT GROUP" MMC**
Ünvan: Badamdar şos. 27, Bakı, Azərbaycan
Tel: (+994 12) 345 04 05
Faks: (+994 12) 345 04 06
E-mail: office@cmt.com.az
Web-site: www.penguin.az

# Pengutex

## Texniki Məlumat Səhifəsi

| | | |
|---|---|---|
| **Üst quruma** | 9-10 saat | 7 saat |
| **Tam (sərt) quruma** | 30 saat | 24 saat |

## Saxlama şərtləri

Boya quru, sərin, yaxşı havalandırılmış, birbaşa günəş şüaları düşməyən depolarda, +5˚C ile +35˚C arasında qapağı açılmamış halda saxlanmalıdır. İstifadə etməzdən öncə yaxşı qarışdırılmalıdır. Yararlılıq müddəti açılmamış qablaşdırmasında 3 ildir.

## Qablaşdırılma şəkli

1.5 kq, 4 kq, 10kq və 25kq -lıq plastik qablarda istehsal olunur.

## Tətbiq edən operator

Bu məhsul professional istifadə üçün nəzərdə tutulub. Tətbiq edən şəxs və ya operator təcrübəli və məhsul barədə məlumatlı olmalıdır. Sözü gedən şəxs boyanı tələbnaməyə uyğun olaraq qarışdırmalı və tətbiq etməlidir. Tətbiqdə iştirak edən işçilər təhlükəsizlik avadanlıqları ilə təmin olunmalıdır.

## Məhsulun rəngi

Su əsaslı pastalar ilə istənilən rəngdə rənglənə bilər. Məhsulun rəngində partiyadan partiyaya kiçik fərqlilikləri mövcud ola bilər.

## Diqqət

Yuxarıdakı məlumatlar laboratoriya sınaqları və sahə tətbiqlərində əldə olunan nəticələr əsasında hazırlanmışdır. Şirkətin idarəsi xaricində olan tətbiqetmələrdə şirkət sadəcə boyanın keyfiyyətinə cavabdehdir. Tətbiqetmə və tətbiqetmə xətalarından yarana biləcək problemlərə görə cavabdehlik daşımır.

## Sağlamlıq və təhlükəsizlik qaydaları

Qabın üzərində göstərilən qaydalara riayət edin. Yüksək temperatur və qığılcım çıxma ehtimalı olmayan depolarda saxlayın. Yaxşı havalandırılan ərazilərdə istifadə edin. İstifadə zamanı dəriylə təmas olmuşdursa, uyğun həlledici ilə sonra su və sabunla yuyulmalıdır. Gözə düşdüyündə bol su ilə yuyulub gərək olduğunda tibbi müdaxilə olunmalıdır.

| | |
|---|---|
| S 2 | : Uşaqların əli çatdığı yerlərdən uzaq tutun. |
| S 3 / 7 | : Qabı sərin yerdə,ağzı bağlı halda saxlayın. |
| S 24 / 25 | : Göz və dəri ilə təmasdan qoruyun. |
| S 29 | : Kanalizasiyaya atmayın. |
| S 46 | : Udulduğu halda dərhal həkimə müraciət edin, qabı və ya etiketi göstərin. |

**"CMT GROUP" MMC**
Ünvan: Badamdar şos. 27, Bakı, Azərbaycan
Tel: (+994 12) 345 04 05
Faks: (+994 12) 345 04 06
E-mail: office@cmt.com.az
Web-site: www.penguin.az

# Pengutex

## Texniki Məlumat Səhifəsi

**Qeyd:** *"CMT GROUP" MMC şirkəti xəbərdarlıq etmədən texniki məlumat səhifəsindəki məlumatları dəyişdirmə hüququnu özündə saxlayır.*

**"CMT GROUP" MMC**
Ünvan: Badamdar şos. 27, Bakı, Azərbaycan
Tel: (+994 12) 345 04 05
Faks: (+994 12) 345 04 06
E-mail: office@cmt.com.az
Web-site: www.penguin.az